

# *Nizami Gəncəvinin bioqrafiyası*

Azərbaycanın görkəmli şairi və mütəfək-kiri Nizami Gəncəvi (tam adı: Əbu Məhəmməd İlyas ibn Yusif) təxminən 1141-ci ildə sənətkar ailəsində doğulmuş, Gəncə mədrəsələrində təhsil almış, şəxsi mütailə sayəsində orta əsr elmlərini mükəmməl öyrənmiş, xüsusən yaxın Şərq xalqlarının şifahi və yazılı ədəbiyyatına yaxından bələd olmuşdur.

Ömrü boyu Gəncədə yaşamış, saray şairi olmaqdan qətiyyətlə imtina etmiş, halal zəhməti ilə dolanmışdır. Təqribən 1169-1170-ci ildə Dərbənd hökmdarı Seyfəddin Müzəffərin kəniz kimi hədiyyə göndərdiyi qıpçaq qızı Afaq (Appaq) ilə evlənmiş, 1174-cü ildə oğlu Məhəmməd anadan olmuşdur.

Nizami Gəncəvi yaradıcılığa lirik şeirlərlə başlamışdır. Əsərlərindən məlum olur ki, şair böyük divan yaratmış, qəzəl və qəsidələr müəllifi kimi şöhrətlənmişdir. Nizami lirikası yüksək sənətkarlığı, məhəbbətə dünyəvi münasibəti, insan taleyi haqqında humanist düşüncələri ilə seçilir. Nizami dünya ədəbiyyatı tarixinə məsnəvi formasında yazdığı beş poemadan ibarət ("Sirlər xəzinəsi", "Xosrov və Şirin", "Leyli və Məcnun", "Yeddi gözəl", "İsgəndərnamə") "Xəmsə" (Beşlik) müəllifi kimi daxil olmuşdur.

Nizami Gəncəvinin ilkin Şərq Renessansın zirvəsi olan yaradıcılığında dövrünün ən humanist, ümumbəşəri ictimai-siyasi, sosial və mənəvi-əxlaqi ideyaları parlaq bədii əksini tapmışdır.

İnsanın daxili aləmini, hiss və duyğularının təsviri, baş qəhrəmanların xarakterlərinin dinamik inkişafda verilməsi Nizami ədəbi məktəbinin əsas qayəsini və məzmununu təşkil edir. Məhəbbət mövzusunun Şərq ədəbiyyatında geniş yayılaraq, ictimai-bəşəri ideallarla, humanist məzmunla zənginləşməsində Nizami Gəncəvi poemalarının mühüm rolu olmuşdur. Nizami Şərq ədəbiyyatında ilk dəfə məhəbbəti fəlsəfi mə`nada şərh edərək, nəcib məhəbbət konsepsiyasını yaratmış, onu insan azadlığı, vicdan azadlığı və mə`nəvi təkamül problemləri ilə bağlamışdır.

Nizami Gəncəvi Yaxın Şərq xalqlarının ədəbiyyatına son dərəcə yüksək humanist ideyalar və yeni sənətkarlıq nailiyyətləri gətirmiş, Şərq ədəbiyyatlarında yeni bir istiqamət açmışdır. Nizami ədəbiyyatı həmişə həyatla əlaqələndirməyə çalışmış, öz mövzularını tarixdən almasına baxmayaraq, onlara müasirlik baxımından yanaşmış, böyük humanist şair olaraq insanı, insan ləyaqətini tərənnüm

etmişdir. O, xalqın istək və arzularını, xalq yaradıcılığından və təfəkküründən əxz etdiyi müdrik fikirlərini yüksək sənət dili ilə ifadə etmiş, həm ideya, həm də sənətkarlıq cəhətdən kamil bədii əsərlər yaratmışdır.

Şərq ədəbiyyatı tarixində Nizami Gəncəvi ilk dəfə olaraq qadını yüksək insani sifətlərə malik ülvi varlıq kimi təsvir etmişdir. Nizami cəsarəti, mərdliyi və gözəl əxlaqı ilə seçilən mübariz qadın obrazlarını insani keyfiyyətlərdən məhrum kişilərə qarşı qoyur, qadının həyatın müxtəlif sahələrdə kişilərlə bərabər çalışmağa qadir olduğunu sübut edir. Nizami Gəncəvi Şərq ədəbiyyatında ilk dəfə olaraq əməyi insanın bütün başqa canlılardan fərqləndirən həyati tələbat kimi tərənnüm etmişdir. Şairə görə yalnız əməkçi insan hörmət və məhəbbətə layiqdir.

Nizami Gəncəvi həm də böyük vətənpərvər idi. O bütün əsərlərdə təsvir etdiyi hadisələri Azərbaycanla əlaqələndirməyə, vətənin keçmiş qüdrətli günlərini tərənnüm etməyə çalışmışdır. Nizaminin əsərlərində vətən təbiətinin gözəllikləri tərənnüm olunur. Onun yaradıcılığında azərbaycan şifahi xalq ədəbiyyatından – dastan, əfsanə, nağıl və atalar sözlərindən bol-bol və məharətlə bəhrələnmişdir. Nizami Gəncəvinin süjetləri isə, öz növbəsində Azərbaycan folkloruna əhəmiyyətli tə`sir göstərmişdir.

Nizami Gəncəvinin əsərləri dünyanın bir çox xalqlarının dilinə tərcümə olunmuşdur. Əsərlərinin nadir əlyazma nüsxələri Moskva, Sankt-Peterburq, Bakı, Daşkənd, Təbriz, Tehran, Qahirə, İstambul, Dehli, London, Paris və s. şəhərlərin məşhur kitabxana, muzey və əlyazmalar fondlarında qiymətli incilər kimi qorunub saxlanılır. Yaradıcılığı Şərq incəsənətinin inkişafında mühüm rol oynamışdır.

XVII əsrin sonundan Avropa və Rusiyada Nizami Gəncəvi irsinə maraq artmış, əsərləri ingilis, alman, fransız, italyan, ispan, rus, yapon və s. dünya dillərinə tərcümə olunmuş, həyat və yaradıcılığı öyrənilmişdir.

Nizaminin poemalarını Azərbaycan dilinə tərcümə edən şair və yazıçılar:
Süleyman Rüstəm və A.Sarovlu (Sirlər xəzinəsi)
Rəsul Rza (Xosrov və Şirin)
Səməd Vurğun (Leyli və Məcnun)
Məmməd Rahim (Yeddi gözəl)
Abdulla Şaiq (İsgəndərnamə: Şərəfnamə)
Mikayıl Rzaquluzadə (İsgəndərnamə: İqbalnamə)

Öz yaradıcılığı ilə bütün dünyada şöhrət qazanan, ədəbiyyatın əbədi zirvəsi sayılan böyük Nizami yalnız dahi şair deyil, ölməz ideyaları ilə öz dövrünü qabaqlamış, ülvi məhəbbət, milli köklərə bağlılıq, ədalətli cəmiyyət, əməksevərlik kimi ən mühüm mövzulara toxunan kamil söz ustadıdır. Humanizm prinsiplərinin

təşəkkül tapmasında şair və mütəfəkkir Nizaminin misilsiz xidmətləri vardır. Bu baxımdan tarixdə onunla eyni sırada dayanacaq ikinci söz və fikir adamı yoxdur. Nizami poeziyası bir daha sübut edir ki, Azərbaycan xalqı əsrlər boyu humanizm ideyalarının daşıyıcısı olmuşdur.